# MÜDRİK QOCA ARXETİPİNİN DƏRVİŞ PARADİQMASI

## Paradigm of an Image Dervish in an Archetype of the Wise Old Man

**Hikmət QULIYEV***

***Özet:*** *Makalede bilge kişi arketipinin izleri araştırılmıştır. Derviş paradigmasının metinlerde karşılaştığımız örnekleri göz önünde bulunduruluyor.*
***Anahtar kelimeler****: arketip, bilge kişi, paradigma, derviş karakteri*

***Abstact:*** *In the article is considered archetype of the wise old man and it features. In this context the paradigm of an dervish image, meeting in texts, is in the research centre.*
***Key words:*** *archetype, wise old man, paradigm, dervish image*

K. Q. Yunq arxetiplər haqqında ilkin təcrübələrini yazarkən arxetipik keyfiyyətlərin simvollarda meydana çıxdığını vurğulayırdı (2, 30). Eyni zamanda K. Q. Yunq müdrik qoca ilə bağlı tədqiqatlarında trikster – qəhrəmanın kölgəsinə də diqqət yetirir. (1, 203)

Müdrik qoca arxetipinin əsasında duran mahiyyət onun yaşlılıq semantemindən doğan qazanılmış təcrübənin ifadəsi olmasıdır. Yunq bu obrazın əsas xüsusiyyəti kimi müdrikliyi irəli sürür.

Müdrik qoca arxetipi mifoloji mətnlərdə, eləcə də yuxu ilə bağlı mətnlərdə nurani, ağsaqqal kimi özünü göstərir. Bu tipli mətnlərdə müdrik qoca yardımçı, qeyri-adi informasiya verən, yol göstərən kimi funksiyalarında çıxış edir. Müdrik qoca arxetipinin bu enerjisi digər mətnlərdə də şüurlu və ya qeyri-şüuri şəkildə özünü qoruyub saxlamaqdadır. Belə ki, folklor mətnlərində bu arxetipin obraz səviyyəsi kimi, ata, baba, dədə, övliya, dərviş və s. paradiqmaları mövcuddur.

Müdrik qoca arxetipinin mahiyyətini qocanın arxaik şüurda yaşayan enerjisi təşkil edir. Mədəniyyətdə qoca semantemi iki mənanı özündə birləşdirir:

* AMEA Folklor İnstitutu

1. Təbiətlə harmoniyada;
2. Cəmiyyətlə harmoniyada.

Təbiətlə harmoniyada qoca bioloji əlamətlərinə əsasən bitkinliyi, törəməzliyi, bir sözlə xaosu işarə edir. Təsadüfi deyildir ki, "Kitabi Dədə Qorqud"un birinci boyunda övladı olmayan Dirsə xan qara çadırda oturdulur. Diqqətlə baxdıqda burada onun övladsızlıq təlaşlarının qocalmağa doğru getməsindən doğduğunu görmək olar. Bu isə, oğuz cəmiyyətində qəbulolunmaz faktdır. Bu, Azərbaycan nağıllarında bir gün güzgüyə baxarkən saç-saqqalına dən düşüdüyünü görən padşahın qəm-qüssəyə qərq olması ilə eyni semantik mənanı daşıyır. Deməli, burada mahiyyət qocalığın təbiətin ölməsini ifadə etməsindədir.

Qoca obrazının ikinci mahiyyəti cəmiyyətlə harmoniyada müəyyənləşir. Belə ki, qoca qazanılmış təcrübənin daşıyıcısı olmaqla, həmin cəmiyyətin mövcudluğunun bütün tərəflərini özündə ehtiva edir. Bu mənada qoca cəmiyyətdə, öyrədici, təbliğedici, xalq həkimi və s. kimi funksiyaları daşıyır. Qocanın bu semantikasından onun mədəni qəhrəman statusu da meydana çıxır. O, bu statusda ilkin əşyalara, qəhrəmanlara ad qoymaqla təcrübələrin ötürülməsinə xidmət edir. Məsələn, Azərbaycan nağıllarında qəhrəmana buta verən dərviş (müdrik qoca) eyni zamanda ona ad verir. Yaxud müxtəlif həyat hadisələrini başa düşməyən şəxsə qoca həyatın mahiyyətini başa salır. Bizim arxivimizdə olan mətnlərin birinin məzmununda deyilir ki, bir şəxs tanrının niyə həmişə yaşlı adamları öldürməsi sualına cavab almaq üçün Tanrı ilə görüşməyi qət edir. Tanrı bir qoca cilidində onun qarşısısına çıxaraq onun bu qəliz sualına müdrikcəsinə cavab verir və bildirir ki, insanları ağacın ən yaxşı meyvəsini dərib yediyi kimi, Tanrı da ən gözəl bəndələrini yanına aparır. Bu mənada mətnlərdə Tanrı, övliya kimi çıxış edən yaçlı, ağ saçlı qəhrəmanlar özündə məhz müdrik qocaya məxsus cizgiləri daşımaqdadır. Demək, qoca cəmiyyətdə müdrikliyi simvolizə edir.

Dərviş obraz paradiqması öz təbiətində müdrik qoca arxetipinin hər iki mahiyyətini yaşadır. Belə ki, folklor mətnlərində dərviş ikili mahiyyətdə ortaya çıxır. O, bir tərəfdən yardımçı, ilahi informasiyanın ötürücüsüdürsə, digər tərəfdən oyunbazlıq edib insanları bəlaya düçür edir. Yəni onun genezisində həm mədəni qəhrəman, həm də trikster fazaları vardır.

Dərviş obraz paradiqması Azərbaycan nağıl və dastan mətnlərində mühüm rola malik olan və böyük bir kompleks əmələ gətirən obrazlardan biridir. Mətnlərdə bu kompleksə daxil olan obrazlar müxtəlif adlarla gedir: dərviş, Həzrət Əli, Şəhmərdan, Ağa, göy atlı, Xızır, Nurani qoca, qoca pirani kişi, abid və s.

Göründüyü kimi, dərviş obrazı həm mənfi, həm də müsbət xarakterə malik olmaqla iki tipli fəaliyyəti özündə birləşdirir. Bu mənada dərviş bütün qalan obraz paradiqmalarını əhatə edən invariant obrazdır. Müdrik qoca arxetipinə münasibətdə isə, o qoca arxetipinin obraz paradiqmasını təşkil edir.

Dərviş obrazı müdrik qoca arxetipinə məxsus keyfiyyətləri, əski şamanın bir sıra xüsusiyyətlərini, müxtəlif təriqətlərə, o cümlədən xalq sufizminə məxsus cəhətləri, islam dinin müqəddəslərinə aid sifətləri, həmçinin xalq təfəkküründə yaşlılıq semantikası ilə bağlı müəyyənləşmiş detalları ozündə birləşdirməklə epik mətnin həm struktur, həm də məzmun laylarının mürəkkəb sxemini formalaşdırmışdır. Bütün bunların müdrik qoca arxetipi aspektindən öyrənilməsi vacib və səmərəlidir.

Azərbaycan epik mətnləri üzərində apardığımız araşdırmalara əsasən dərviş obrazının aşağıdakı funksiyalarını müəyyənləşdirmişik:

1. Övladvermə funksiyası;
2. Yolgöstərmə funksiyası;
3. İnformasiyavermə funksiyası;
4. Sehrli vasitəvermə funksiyası;
5. Çevirmə funksiyası;
6. Yalançı dərvişliketmə funksiyası;
7. Advermə funksiyası;
8. Bəxtvermə funksiyası.

Müdrik qoca arxetipinin dərviş paradiqmasının ən mühüm funksiyalarından biri olan övladvermə funksiyası özündə müdrik qoca arxetipinin bəxşetmə xarakterini ifadə edir.

Övladvermə funksiyası digər funksiyalar kimi süjeti irəliyə aparan, həlledici rol oynayan funksiyadır. Nağıl mətnlərində bu detal özünü iki şəkildə göstərir:

1. Dərviş obrazının verdiyi övladla dərviş arasında baş verən hadisələr.
2. Dərviş obrazı və onun verdiyi övladın mənsub olduğu nizamlı dünya ilə nizamsız dünya və obrazları arasında gedən hadisələr.

Bu isə dərviş invariantının yuxarıda da qeyd etdiyimiz genezis mürəkkəbliyindən doğmaqla zaman-zaman cilalanaraq formalaşmasından irəli gəlir.

Müxtəlif vasitələrlə həyata keçirilməsinə baxmayaraq (alma, tüpürcək, dərman) bu funksiya bir mahiyyət daşıyır ki, o da övladvermədən ibarətdir. Bu funksiyada dərviş obrazının iki cəhəti özünü göstərir:

1. Verdiyi övladın müqabilində heç bir şey istəməmək. Bunlar daha konkret desək, «pay verib, pay almayan dərvişlər»dir.

2. Verdiyi övladın müqabilində müəyyən şərt kəsmək. Bunlar isə «pay verib pay uman dərvişlər»dir.

Ümumiyyətlə, götürdükdə bu funksiya konkret olaraq nə nağıla, nə də dastana aiddir. Bu məhz epik təfəkkür üçün xarakterik olmaqla epik janrlar üzrə təzahür edir.

Azərbaycan epik düşüncəsində müdrik qoca arxetipinin dərviş obraz paradiqmasının daşıdığı funksiyalardan biri də yolgöstərmədir. Bu funksiya mətnlərdə məqsədə doğru gedən qəhrəmanın iddia və imkanları arasında kəskin ziddiyyətin yaranması anında həyta keçirlir. Belə ki, artıq nağıl dinləyicisi üçün hadisələr son məqama – qəhrəmannın məğlubiyyətinə çatsa da, nağıl söyləyicisi bu funksiyanı «aktivləşdirməklə» nağılda yeni inkişaf istiqamətini yaradır.

Azərbaycan nağıllarında ən geniş yayılmış olan bu funksiya bir çox xüsusiyyətləri ilə türk xalqları folklorunda mühüm rola malik olan yol tanrısının funksiyaları ilə üst-üstə düşür. «Ala atlı yol tanrısının funksiyalarını daha öncəki dönəmlərdə türklərdə qutsal sayılan boz rəngli qurd yerinə yetirərkən, islamiyyətin qəbulundan sonra boz atlı Xızır öz üzərinə götürmüşdür» (4).

İnformasiyavermə funksiyası qəhrəmanın yeni obyekt barədə məlumatlandırılması, mətn kontekstində isə süjetin inkişafına təsir edən bir funksiyadır. Dərviş obraz paradiqmasının yolgöstərmə funksiyasından fərqli olaraq informasiyavermə funksiyası qəhrəmanın qarşılaşacağı obyekt və hadisələr barədə informasiyanın verilməsinə xidmət edir.

Azərbaycan nağıl və dastanlarında bu funksiya daha çox digər funksiyalarla (yolgöstərmə, informasiyavermə) yanaşı təqdim olunur. Belə ki, bu üç funksiya mətndə əvvəlcə informasiyavermə, sonra yolgöstərmə, daha sonra isə sehrli vasitəvermə şəklində reallaşır. Digər funksiyalardan fərqli olaraq, bu

funksiya qəhrəmanın gedəcəyi obyektdəki qüvvələrlə mübarizə aparmaq üçün konkret sehrli vasitənin təqdim olunmasına xidmət edir.

Yeni vasitə ilə təchiz olunmuş qəhrəman statusunu dəyişir, mübarizə apardığı və aciz olduğu vəziyyətdən daha güclü və hazırlıqlı bir vəziyyətə keçmiş olur.

Çevirmə funksiyasının əsasında dərviş paradiqmasının fəaliyyəti nəticəsində müəyyən obyektin, varlığın bir haldan digər bir hala keçirilməsi dayanır ki, bu da çevirmənin məqsədindən və yaxud da formasından asılı olmayaraq funksiya kimi özünü göstərir. Bu funksiyanın genezisində xalq təfəkkürünün cadugər və oyunbaz dərvişlər barədə olan təsəvvürləri dayanır. Müdrik qoca arxetipinin dərviş obraz paraqdiqmasında özünü göstərən bu funksiya əslində müdrik qocanın ikili təbiətindən – qəhrəman və trikster cəhətindən doğur. Trikster isə bəzən ən ağıllı, bəzən isə ən axmaq və kələkbaz rolunda özünü göstərir.

Əslində bu funksiyanın belə adlandırılması şərti xarakter daşıyır. Biz yalançıdərvişliketmə dedikdə dərviş olmayıb, sadəcə, öz məqsədinə nail olmaq üçün dərvişlibas olaraq fəaliyyət göstərən obrazları nəzərdə tuturuq. Belə ki, nağıllarda qəhrəmanın və yaxud da hər hansı digər bir obrazın öz cildində gedə bilməyəcəyi məqamda bu funksiya (yəni yalançı dərvişliketmə) «işə düşür». Bu məsələnin tarixi kökləri də vardır. Professor F. Köprülü yazır: «Bizim qənaətimizə görə Əhməd Yəsəvi zühur elədiyi zaman türk aləmi uzun bir zamandan bəri, hər halda IV əsrdən bəri təsəvvüf fikirlərinə alışmış, təsəvvüflərin mənqəbə və kəramətləri yalnız şəhərlərdə deyil, köçəbə türklər arasında belə az-çox yayılmışdı. İlahilər, şeirlər oxuyan allah rizası üçün xalqa bir çox yaxşılıqlar edən, onlara cənnət və səadət yollarını göstərən dərvişləri türklər əskidən dini bir qüdsiyyət verdikləri ozanlara bənzədərək hərarətlə qəbul edir, dediklərinə inanırdılar» (5, 19).

Yalançı dərvişliketmə funksyası arxaik semiotikaya malikdir. Əski inisiasiya ritualları ilə bağlıdır. Bu şamanların cilddəyişməsi ilə eyni semantika daşıyır. Bu funksiyada maskalanma özünü göstərir ki, qəhrəman da bunun vasitəsi ilə öz cildini dəyişir.

Qeyd etmək lazımdır ki, dərviş paradiqmasının advermə funksiyası obrazın ən əski struktur qatları ilə bağlı olub müəyyən qanunauyğunluğa malikdir. Çünki dərvişin advermə funksiyası təsadüfi fəaliyyət aktı olmayıb özünəməxsus magik əhəmiyyət daşıyır. Bu da ilk növbədə adın sakral mahiyyəti ilə qırılmaz əlaqədədir: «Əski mifoloji düşüncədə gerçəkliyin sözlə, adla adlandırma ilə yaradıldığına

inanılırdı. Çünki bu düşüncə adla əşya və ya şəxsiyyət arasında eyniyyət görürdü. Adın doğru-düzgün seçilməsi nizamsızlığın qaynağı olub xaosa, qarışıqlığa da yol aça bilərdi. Ad və varlıq iç-içə idi. Ad varlığın ifadəsi, mahiyyəti olmuşdu, varlıq özü də onda və onunla yaşayırdı. Adla tale arasında qırılmaz bir bağlılıq olduğuna da bu üzdən inanılmışdı. Ona görə də bir kimsənin adı vasitəsilə ona xeyirxahlıq və ya bədxahlıq edilə biləcəyi mümkün sayılırdı» (3, 14). Təsadüfi deyildir ki, sakral mahiyyət daşıyan ad məhz dərviş paradiqmasının bir üzvü və ya digər magik qüvvəyə malik olan obrazlar tərəfindən verilir. Bu da hər üç komponentin – ad verənin, advermə funksiyasının və adın sakral xarakterli olduğunu göstərir. Təbii olaraq bu sakral mahiyyət süjetin sonrakı mərhələlərində özünü qəhrəmanın (sakral mahiyyət daşıyanın) fəaliyyətində aydın şəkildə reallaşdırır.

Nağıllarımızda çox da rast gəlinməyən, lakin müstəqil funksiya kimi özünü göstərən funksiyalardan biri də bəxtvermə funksiyasıdır. Bu funksiyanın digər funksiyalar kimi konkret təzahür forması yoxdur. Belə ki, əgər övladvermə funksiyası konkret olaraq övladsızlıq zəminində təzahür edirsə, bundan başqa yolgöstərmə, məlumatvermə, sehrli vasitəvermə müəyyən bir məqsəd uğrunda mübarizə aparan qəhrəmana kömək lazım olan anda həyata keçirilirsə, bunlardan fərqli olaraq bəxtvermə funksiyası situativdir və sabit reallaşma formuluna malik deyildir.

Azərbaycan nağıllarında dərviş invariantının funksional strukturunun öyrənilməsi bir sıra qənaətlərə gəlməyə imkan verir.

Mətnlərdən aydın olur ki, genezis baxımından fərqli olan bəzi obrazlar funksiya cəhətdən eyni fəaliyyət semantikasına malikdir. Belə ki, bu obrazları (Dərviş – Xızır – Nurani Qoca – Əli – Şahi-mərdan – Abid – Pirani kişi) eyni semantik sırada birləşdirmək vacibdir. Başqa sözlə, bunlar xalq təfəkküründə fəaliyyət baxımından eyniləşdirilmişdir. Bu isə təbiidir. Çünki obrazın əsasında müdrik qoca arxetipi dayanır ki, epik təfəkkürün müxtəlif laylarında da bu özünü müxtəlif paradiqmatik keyfiyyətlərdə göstərmiş olur.

Müdrik qoca arxetipi özündə müdrikliyi daşıdığı kimi, trikster keyfiyyətlərini də göstərməkdədir. Dərviş obraz paradiqmasının funksiyalarını araşdırarkən məlum oldu ki, bu obrazın təbiətində iki qütb birləşib: müsbət və mənfi. Məlum oldu ki, dərviş obrazı kompleksinin bütün obrazlarının fəaliyyəti xalq təfəkküründə məhz bu qütblər əsasında müəyyənləşmişdir.

## ƏDƏBİYYAT

**1.** Azərbaycan dastanları. Beş cilddə. I-V cildlər. Bakı, «Lider nəşriyyat», 2005.

**2.** Azərbaycan nağılları. Beş cilddə. I-V cildlər. Bakı, "Şərq-Qərb", 2005.

**3.** Bəydili C. Türk mifoloji sözlüyü. Bakı, «Elm», 2003, 418 s.

**4.** Gökdağ B. A. Türk kültüründe yol tanrısı ile ilgili inanclar. «Ortaq türk keçmişindən ortaq türk gələcəyinə» III uluslararası folklor konfransının materialları. Bakı, "Səda" nəşriyyatı, 2005, 521 s.

**5.** Köprülü F. Türk edebiyyatında ilk mutasavvıflar. Ankara, 1991, 415 s.

**6.** The Trickster: A Study in Native American Mythology. (Commentaries by Karl Kerenyi and C. G. Jung), New York: Schocken Books, 1956, 214 p.

**7.** Критический словаръ аналитической психологии К. Юнга. 175 стр.

**8.** Юнг К. Г. Об архетипе Трикстера http: // majorov. ru/analytical-psychologhy/ trickster/6/